

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aygün Mütəllimova
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto:
İpək Məcid

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014
2006-cı ilin noyabrından çıxır.
Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan



# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 2 (76) / 2022



# “TƏK İNCİ”
## adlı bilik yarışması












F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı, Missiya Media qrupunun və Yuri Kovalyov adına 229 saylı məktəbin tərəfdaşlığı ilə "Açıq dərs - Açıq fikir" layihəsi çərçivəsində Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş “Tək inci” adlı bilik yarışması keçirildi. Tədbirin keçirilməsində əsas məqsəd gənc nəsildə milli mədəni irsə qayğı və mənəvi dəyərlərə ehtiram hissinin aşılanması, Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarının həyat və yaradıcılığının tanıdılmasıdır.

Məktəbin foyesindən başlayan tədbirdə Qarabağ şikəstəsinin sədaları altında Şuşa qalası qarşısında Pənah xan, Xarı bülbül, Fransız yazıçısı Aleksandr Düma obrazları canlandı. Xudayar təsnifi ifa olundu. Xan qızı Natəvanın “Qərənfil”, “Bənövşə”, “Könlüm” və s. qəzəlləri səsləndi, Qarabağ mətbəxinin şirniyyatları qonaqlara təqdim olundu.

Tədbirin bədii hissəsində İ.Əfəndiyevin “Xurşüdbanu Natəvan” pyesi əsasında kompozisiya təqdim edildikdən sonra iştirakçılar bilik yarışmasına keçid aldı. Yuxarı sinif şagirdləri arasında keçirilən bilik yarışmasında iştirakçıların cavabları münsiflər tərəfindən qiymətləndirilməklə I, II və III yerlər üzrə qalib müəyyənləşdirildi. 1-ci yerə Mirzoyev Əli, 2-ci yerə Hüseynova Çinarə və 3-cü yerə Bodurova Ayşə layiq görülməklə diplom və hədiyyələr qazandılar.



















*Sevinj Nurugizi*

# Aghdja and Jubbulu

Surayya`s village was destroyed by enemy. Perching on the grapewine of the ruined balcony of the house Aghdja was very gloomy and mournful. He was confiding his sorrow with Jubbulu, which wallowed in dust.

- Are you alone, Jubbulu?

- Yes, Aghdja, my arm was also crumpled by stone. I am bored. Are you bored, too?

- Of course. My heart is breaking. I wonder if Surayya will come here?

- No, Aghja, no, the village is full of enemy...

- But, what can we do?

- What a question! You have wings. If I had wings, I should never stay here a minute. Come and take me on your bill. Let`s fly to Surayya.

Aghdja became happy. He perched near by Jubbulu, hardly pulling her out of the dust. He tootk her by his bill and flew. He knew the way very well. Once Surayya took him to her aunt.

They were flying over ruined and burnt villages. Everywhere was smoky. Aghdja stiffled by smoke. But he was still flying. He didn t have to be late. It was getting dark. Jubbulu was very heavy. Aghdja felt tiredness in his bills. He pressed his bills fjr not to give Jubbulu to fall, because she was wounded. Aghdja didn t show his tiredness to his friend. He tried to be cheerful. There was little time to get to the village.

Surayya was very gloomy. She was looking out of the window pursing her lips. She hadn`t eaten anything since morning. She was plunged in a deep reverie.

Suddenly she stood up, rubbed her eyes. She wanted to understand if it was true or dream. No, it wasn`t dream. It was Aghdja with Jubbulu in his bill.

Surayya jumped up and down with happiness, embraced her friends. They werw again together. Three friends. Now three friends were waiting for Surayya`s father`s return from the front and the day of their returning to their lovely village.





Rəsm: Nərmin Abdullayeva

**Zahirə Dadaşova**

# Ağ damlı evlərin çörəyi

NAĞIL

Qulaq asın, danışım.

Biri var idi, biri yox idi, Yaradan var idi, bəndəsi yox idi. Çox qədimlərdə, gözəl bir diyarda dünyada heç bir yerdə olmayan, nadir sarı buğdası ilə şöhrət tapmış bir məmləkət vardı. Bu məmləkətin insanları çörək verən idilər. Üz tutub bu yurda gələnləri heç vaxt əliboş, çörəksiz qaytarmazdılar. Sarı-qızılı taxıl zəmilərində çalışan zəhmətkeş insanlar becərdikləri halal nemətdən yeyər, halallıqla da dolanardılar. Onlar bu zəmilərin sapsarı dənlə dolu sünbüllərini oraqla biçər, sərib günün altında qurudardılar. Sonra taxılı çarçarla döyər, buğda çəltiyindən ayrılar, sonra onu aparıb dəyirmanda üyüdər, unu çuvallara yığardılar. Bu dəyirmanda hər gün yüz çuval un üyüdülərdi. Yaxın-uzaq ellərdən tacirlər bu diyara buğda unundan bişirilən ətirli çörəkdən dadmaq həvəsilə gələr, dəvələrini un çuvalları ilə yükləyərdilər.

Dəyirmanın yanında karvansara var idi. Karvansara sahibinin övladı yox idi, amma yanında Cavan adlı bir şagirdi vardı. Karvansara sahibi çox zalım və xəsis idi. Gələn zəvvarlardan gecələmək üçün çoxlu pul alardı. Şagirdi sahibinin hərəkətlərindən utanar, lakin heç bir söz deyə bilməzdi. Əlindən gələn mehriban təbəssümlə tacirləri qarşılay6ıb, yola salmaq olardı.

Bir gün xəsis karvansara sahibi xəstələndi, məmləkətin hər yerindən təbiblər gətirildi, lakin dərdinə bir əlac tapılmadı. Şagirdi ona dedi:

- Cəsarətimə görə bağışlayın, amma xəstəliyiniz daxilinizdə insanlara bəslədiyiz kin, paxıllıq və xəbislikdəndır. Bura çörək ətri ilə gələnlərə elə qiymət deyirsiniz ki, gəldiklərinə peşman olurlar. İnsanlarla belə rəftar etmək olmaz. Qazandığınız bir parça çörəyi Allah əlinizdən alıb, sizi kor qoyar.

Xəsis karvansara sahibi bir qədər fikirləşdi gördü ki, gənc şagirdinin sözündə həqiqət var. Odur ki, əmr etdi:

- Bu gündən bura gələn bütün zəvvarlara bir çuval əlavə un verilsin, karvansarada isə gecələmək üçün çox cüzi ödəniş tələb edilsin.

Az sonra karvansara sahibi tacirlərin duası ilə sağalıb ayağa qalxdı.

Günlər keçdi, bu diyara üz tutanlar çörək verən karvansara sahibindən, sehrli buğda üyüdən dəyirmandan hər yerdə söz açdılar, bu məmləkətin sorağı mahaldan-mahala yayıldı.

Bu diyardakı evlərin damları ağ idi. Hər səhər günəş öz qızmar şəfəqlərini şehirli buğda əkilən zəmilərin üstünə salardı. Dənlə dolu sünbüllər yetişər, ağırlıqdan torpağa baş əyərdilər. Bu məmləkətin insanları evlərin damlarını ağ əhənglə əhəngləyərdilər ki, yayda sərin, qışda isti olsun. Ağ damlı evlər məmləkəti halal çörəkli bir yurd yerinə çevrilmişdi.

Ağ damlı evlərin diyarına hardansa gəlmə xəbis bir tayfa yerləşmişdi. Karvansara sahibi onlara kömək etmiş, ac qalmağa qoymamışdı. Amma dad qədirbilməz qonşu əlindən. Bu tayfanın qızlarından birinin karvansara sahibinin şagirdinə gözü düşmüşdü. Cavan isə öz elinin qızını - Ağcanı sevirdi. Bunu bilən paxıl qonşu qızı saf ürəkli Ağca ilə dostlaşdı. Hər gün onları bir-birindən ayırmaq üçün yeni hiyləgərliklərə əl atdı.

Nəhayət, günlərin bir günü Cavan Ağca ilə gizlicə görüşərkən karvansarada yanğın baş verdi. Karvansara yanıb tamam kül oldu. Günahı gəncdə gördülər. Hiyləgər qonşu qızı onun üzünə dayandı ki, yanğından qabaq karvansaraya gəlmiş, Cavanı orada görmüşdür. Yəqin ki, karvansaranı da o yandırıb. Hamı diliqurumuş qonşu qızının sözünə inandı, Cavanı daş-qalaq edib, eldən qovdular. Ağca gözüyaşlı qaldı.

Cavan bu tənələrdən, haqsızlıqdan başını götürüb getməkdə olsun, sizə kimdən deyim, kimdən danışım, karvansara sahibindən. O, şagirdinin karvansaranı yandırmasına inanmaq belə istəmirdi. Odur ki, axtarıb bir falçı tapdı, fal açdırdı. Falçı söylədi ki, oğlanın bu işdə heç bir günahı yoxdur, yanğını bu məmləkətə təzə köçən bir qız törətmişdir. Gəncin başı üstündə şamlar yanır, o öz elinə qayıdacaq və bu yurda sahib çıxacaq, şah olacaqdır.

Hə, Cavan öz el-obasından, sevgilisindən gözüyaşlı ayrılıb yola düşdü. Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, diz qabırğada, ayaq üzəngidə getməyə başladı. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib cinlər diyarına yetişdi. Cinlər Cavanı görən kimi üstünə atıldılar:

- Ey bəni-insan, sən kimsən, nəçisən? Nə cürətlə bura gəlib çıxmısan?

Cavan pis insanların əlindən qacdığını söylədi və yalandan bu diyarı axtarıb-tapdığı üçün sevindiyini deyib, onları inandırdı. Cinlər gecələr oğurluqla xəzinə yığar, çörəyin nə olduğun bilməzdilər. Cavan cinlər diyarında yaşamağa məcbur oldu və əl altından yavaş-yavaş onların bütün sirlərini öyrənməyə başladı. Dostlaşdığı bir cinin üstünə dəmir sancaq taxdı ki, qaçmasın, ona yer şumlatdı, taxıl əkdirdi, ev tikdirdi. Dönüb oldu cinlərin ən inamlı, yaxın adamı. Cinlər padşahı da gəncin ağıllı, bacarıqlı olduğunu görüb, onu özünə vəzir təyin etdi..

Zaman sürətlə keçdi, Cavan öz el-obası üçün çox darıxdı. Hər gecə yuxusunda anasını, sevgilisini gördü. Öz mahalına, elinə dönmək istədi. Bir gün cinlərdən öyrəndiyi cadu-əfsunu oxuyub, görünməz oldu, cinlərin yığdıqları bütün xəzinəni ələ keçirdi. Dostlaşdığı cinin belinə minib onu evlərinə aparmağı əmr etdi. Beləcə, bir illik yolu bir günə gəlib, doğma yurda yetişdi. Bir evdə axşamladı. Ev sahibindən öyrəndi ki, karvansara sahibi dünyasını dəyişmiş, bütün malını-madarını ona vəsiyyət etmişdir.

Səhər açıldı, Cavan şəhər əhlinin meydana tərəf axışdığını gördü. O da onlara qoşuldu. Bu vaxt bir quş düz gəlib onun başında oturur. Sən demə, bu şahlıq quşu - Humay quşu imiş. Şah ölmüş, şəhər əhli özlərinə yeni şah seçmək üçün quşu üç dəfə uçurtmuş, üçündə də quş gəlib Cavanın başına qonmuşdu. Beləcə, camaat Cavanı taxta çıxardır, özlərinə şah seçirlər. Cavan şah seçiləndən sonra hiyləgər qonşu qızını qatıra bağlayıb, ölənə qədər sürütdürür, Ağca ilə kəbin kəsdirib, qırx gün, qırx gecə toy edir, ömürlərinin sonuna qədər şad-xürrəm yaşayırlar. Çörəyi bol olan ağ damlı şəhərin sakinləri ağıllı şahları ilə firavan yaşayıb, ömür sürürlər.

Burada nağıl tamama yetdi, hamı durub evinə getdi. Mən də ağ damlı evimə getdim. Evə girdim, göydən üç alma düşdü, üçü də öz ağzıma düşdü, nə edim ki, sizə çatmadı.

Hə, nağılsevərlər. Söylədiyim nağılda həqiqət də var. Sonralar ağ damlı evlərin elində - Ağdamda həmin dəyirmanın və karvansaranın yerində çörək muzeyi yarandı. Çörəyi göz bəbəkləri kimi qoruyanlar, illərlə bu sehirli dəyirmanı da qoruyub, yüz illər tarixi olan abidəyə çevirdilər. İnanırıq ki, yenə də uzaq ellərdən insanlar həmin yerlərə çörək ətrinə gələcəklər.




Алла Ахундова

# «СКАЗКА О ЦАРЕВНЕ НЕФТИ»

*Начало в предыдущем номере*

*Дышит Хазаргиса, а по морю от ее дыхания волны ходят. Вдохнет – Буруг чуть ли не до самого дна проваливается, выдохнет – взлетает Буруг на волне под самое небо. Но все равно поет:*

*Не страшны в пути преграды!*
*Нет прекрасней Нефтезады!*
*Все моря пройду,*
*Но тебя найду!*

*А Нефтезада слушает песню и сама чуть не выпрыгивает навстречу Буругу. Встала Хазаргиса, отвалила камень, что на дне лежал, а там уж Поток Текучий подхватил царевну Нефти и опять в подземное царство унес.*

*Только примчались они, а на голову падишаха Топрага сама земля осыпается. Это Буруг, не найдя Нефтезады в море, начал пробиваться к ней сквозь землю. Мечутся слуги падишаха, да не столько сражаются, сколько спасаются.*

*А Буруг закружился на одной стальной ноге, да так быстро, что как штопор, в землю ушел.*

*Разбежалось зеленое воинство Травы, опустило свои острые сабли. Развалился на куски Старик-Меловик, только пыль от него полетела...*

*Вертел, вертел Буруг Глину-Липучку, прилипала она к нему, прилипала, а Буруг взял и посыпал её волшебным порошком; она и раскисла, так и отлипла.*



*Долго сражался Буруг с Камнем-Горой. Бил, бил его, сверлил, сверлил его пока не просверлил насквозь, очень устал, а навстречу ему уже и Песок Сыпучий валится, и Поток Текучий катится, как-то он с ними справится?*

*А в подземном царстве падишах Топраг держит совет. Страшная Сороконожка, визирь падишаха, складывая на животе одну за другой все сорок ножек, кланяется падишаху и говорит:*

*- Выпусти джина! Главного джина! Джина-Газатдина!*

*Был когда-то у падишаха Топрага такой джин, но он его за превращения в кувшин запечатал, да там и держал на страх остальным. А джин, который больше всего на свете любил всякие волшебные превращения, в это время, сидя в кувшине, пел заунывные песни:*

*Я несчастный джин, Газ-ат-дин!*
*До чего дожил Газ-ат-дин?*
*Падишах Топра-а-а-аг*
*Мой заклятый вра-а-а-аг,*
*Посадил меня-а-а-а в глиняный кувшин!*
*Ай-яй джин, Газ-ат-дин!*

*Спустился падишах в подземелье, распечатал кувшин, выпустил Газатдина из-под земли, чтобы сразился он с Буругом. Но Газатдин слишком долго сидел в кувшине, и помогать падишаху не захотел. Увидев Буруга, он подлетел к нему и гневно допел свою песню до конца:*

*Падишаху неугодный*
*Потому, что я – природный,*
*Потому, что я – свободный*
*Граж-да-нин,*
*А не джин*
*Газ-ат-дин!*

*И погладив газообразную бороду, с грустным свистом выдохнул:*

*- Ох, я уже тысячу лет не превращался! – и превратился из маленького джина в такого огромного, что даже напугал Буруга. Но Буруг не растерялся и предложил Газатдину два чудесных сосуда: колбу и реторту. Газатдин, соскучившись по превращениям, обрадовался, взял волшебные сосуды и немедленно принялся за дело, превращаясь то в пластмассу, то в огонь и совершенно забыл обо всем на свете.*

*Напрасно ждал падишах Топраг спасения, зарос он от злости кактусами.*

*А Буруг уже пробил толщу земли навстречу Нефтезаде, не остановили его ни Песок Сыпучий, ни Поток Текучий.*

*Неудержимая сила потянула Нефтезаду к пробитой скважине, как ни цеплялись за нее слуги падишаха, она, как завороженная, потянулась наверх, и никто ее не смог удержать.*

*Идет Нефтезада по земле, струятся и льются тысячи ее бесконечных кос, сверкают и переливаются на солнце всеми цветами радуги. А навстречу ей поднимаются огромные трубы. Их открытые жерла, как разинутые рты, гулко говорят:*

*- Если ты хочешь стать прекрасной царевной нашего времени, войди!*

*Очень страшно было царевне, но очень уж ей хотелось стать прекрасной царевной нашего времени, и она вошла. Долго искала выхода Нефтезада, много испытать ей пришлось: и пламя, и холод, и дым, и пар. Но вышла она, наконец, и увидела вдруг Нефтезада в многогранном зеркале солнца, что стала она еще прекрасней, чем была. И не просто царевной, а волшебницей. Льются её бесконечные косы, но не даром они проливаются...*

*Вот стоит ряд автомобилей, от самого большого до самого маленького мотоцикла, стоят они все на подставках, необутыми голыми колесами болтают, как ногами, а пробежать не могут. Обула их царевна Нефти в замечательные каучуковые шины, напоила из бензином, - запрыгали автомобили, распробовали бензин: вкусно! – и помчались по дорогам земли.*

*Спасибо, царевна Нефти!*

*Набросила Нефтезада свои блестящие волосы на станок, стал станок ткать, и выткал целое море шелка, голубого, зеленого, алого... Вот спасибо, царевна Нефти!*

*Летят самолеты: спасибо, царевна Нефти!*

*Брызнула Нефтезада на голые ветви деревьев волшебным молоком, ожили деревья, вспыхнули на них листья, созрели плоды: спасибо, царевна Нефти!*

*Здравствуй, Прекрасная Царевна, - и узнала Нефтезада в этом человеке Буруга – Нефтяную Вышку.*

*Загремели свадебные бубны, заиграли свадебные флейты, взял Человек за руки Прекрасную Царевну Нашего Времени, Царевну Нефти и увел ее с собой в Страну Превращений.*



Gəlin birlikdə oxuyaq




# Səhifəni çevirmə!

*Raçel Burk*

Ana soruşdu:

- Yatmazdan əvvəl nağıl dinləmək istəyirsən?

Sami başını tərpətdi:

- Yatmaq istəmirəm. Hələ yorulmamışam.

- Yaxşı, - ana dedi. – Bəs niyə oxumağa kitab seçmirsən?

Sami rəfdən yeni bir kitab götürdü.

Yalnız birinci səhifəsini oxu, - o, divanda yerini rahatlayıb dedi.

Ana oxumağa başladı...

- Bu qədər bəsdir, - Sami dilləndi. – Səhifəni çevirmə!

Ana əlfəcini səhifələrin arasına qoydu. Sami bir anlıq fikrə getdi.





- Ayılar yatmağa necə hazırlaşır? – o, soruşdu.

- Bilmirəm, - anası cavab verdi.

Sami səhifənin qırağını qaldırıb gizlincə onu nəzərdən keçirməyə başladı. Oradakı şəkil xoşuna gəldi.

- Burada nə yazılıb? – o soruşdu.

Ana oxumağa davam etdi...

- Mən də balaca Ayı kimi pijamamı geyinməyə gedirəm, - o dedi. – Amma bu qədər bəsdir. Səhifəni çevirmə!

Ana Samiyə pijamasını geyinməyə kömək etdi.

- Görəsən, ayılara da yatmazdan əvvəl nağıl oxuyurlar? – Sami soruşdu.



- Bəlkə, bunu da öyrənək? – Sami təklif etdi. Beləcə, ana yenidən oxumağa başladı...

Sami əlini qaldırıb anasının sözünü kəsdi:

- Ana, bu qədər bəsdir, - dedi. – Səhifəni çevirmə!

- Balaca Ayı dişlərini yudu, mən də fırçalayım, - Sami dedi və tez əlavə etdi: - Amma mən yatmayacağam.

Ana qaldığı yerdən oxumağa davam etdi...

Sami gözlərini ovxaladı:

- Ana, sən də məni qucaqlayarsan?

Anası nəvazişlə gülümsədi və Samini qucağına alıb otağına apardı.

- Maraqlıdır, görəsən, sonra nə oldu? – ana dedi.

- Onda bir səhifə də oxu, görək nə oldu, - Sami tez cavab verdi.

Ana oxumağa başladı...

Anası kitabı örtüb Samini öpmək istəyəndə, o etiraz etdi:

- Dayan! – deyə barmağını anasının dodağına qoydu. – Hələ yatmaq vaxtı deyil. Səhifəni çevirmə.

- Bəlkə, yenə balaca Ayının hekayəsini oxuyum? – ana soruşdu. Sami oyuncaq ayısını qucaqlayıb dedi:

- Yaxşı, oxu. Amma lap az. O da hələ yorulmayıb. Bala kirpi gözünü yumub qulaq asmağa başladı.

- Səhifəni çevirə bilərəm? – ana soruşdu. Sami cavab vermədi. Ana başını qaldırıb baxanda balasının mışıl-mışıl xoruldadığını gördü. Sonra o, səhifəni çevirib nağılın axırını oxudu...

SON















# Yeni kitablar bizim rəflərimizdə




Uşaqlar və gənclər üçün nəzərdə tutulmuş “Sehrli abidələr” kitabında Azərbaycanın abidələrinin tarixi, görünüşü, memarlıq xüsusiyyətləri və bugünkü vəziyyəti barədə dolğun məlumatlar toplanıb.




Bu kitab tırtılın kəpənəyə çevrilməyini maraqlı obrazlar və əyləncəli hekayə vasitəsilə izah edir.




Dünya xalqlarının nağılları – Bu kitab dünya xalqlarının folklorundan toplanmış və ilin 365 gününə uyğun nağıldan ibarətdir.








Sevinc Nuruqızının “Melisa” əsəri həyatı bütün həqiqətləri və doğruları ilə göz önündə canlandırır. Əsər oxucunu öz çəhrayı dünyasından alıb cürbəcür çalarlarla dolu dünyaya səyahətə aparır. Əsərdə ön planda insandır – öz sevinci-kədəri, sevgisi-nifrəti, doğrusu-yalanı ilə... Və maraqlısı budur ki, insan obrazları bir gəlinciyin düşüncələri ilə bir-bir açılır, saf-çürük edilir, yaxşıya-pisə bölünür. Bir sözlə, “Melisa” öz gənc oxucusuna həyatı öyrədir... Amma hər bir halda son söz öxucunundur...
Sevinc Nuruqızının “Melisa” əsəri Türkiyənin İLESAM-AKÇAĞ uşaq ədəbiyyatı roman, hekayə və nağıl - 2018 (kitab dosyası) müsabiqəsində roman janrında birinci yerin sahibi olmuşdur.




Bu kitabda Ramiz Rövşənin balalara və nəvələrə həsr etdiyi şeirlər toplanıb.




Bu hekayədə bir ailə başçısının qazanc dalınca uzaq və təhlükəli dənizlərə üz tutması ilə yanaşı, isti yuva məfhumu da təsvir edilir.

Meşədə asanlıqla yolu azmaq mümkündür. Balaca Maşa Rusiyada böyük bir meşənin yaxınlığında yaşayır. Bir gün onun başı giləmeyvə yığmağa elə qarışır ki, meşənin dərinliklərinə gedib çıxır və yolu itirir. Görəsən, böyük qonur ayı ona kömək edəcək?




Şimali Amerika yamaclarında dolaşan balaca qurd acdır, çəmənlikdə otlayan quzu isə dadlı qəlyanaltıya bənzəyir. Lakin balaca, ağıllı quzunun başqa planları var.




Qızmar, bürkülü yay günlərində Zambiyada quraqlıq başladı və tezliklə bütün heyvanlar ac-susuz qaldılar. İndi heyvanlar quraqlıq vaxtı onları qidalandıran Əsrarəngiz ağacı oyatmalı idilər. Bəs bu ağacı necə çağırsınlari?




Pələngə inanıb yaxsılıq etmək olarmı? Bir nəfər dag yolu ilə bazara gedir və quyuya düşmüş pələngə rast gəlir. O, pələngə kömək etmək istəyir, ancaq bundan sonra sag qalacaqmı?







Aqneşka Stelmaşık – "Məcara axtaranlar klubu"nun nəşr etdiyi kitablar seriyası azyaşlı uşaqlar, yeniyetmə və gənclər üçün nəzərdə tutulub.




Мягкая книжка-раскладушка с мягкими фигурными страничками обязательно станет любимой игрушкой вашего малыша. Его ждет новая встреча с героями мультфильма.



## Gəlin, sizə kitabsevərlərin bayramından danışım.



# Oxu günü

Mütaliəyə diqqətin artırılması məqsədilə Heydər Əliyev Mərkəzində keçirilən "Oxu Günü" ədəbiyyata marağı olan hər kəsdə kitab bayramı abu-havası yaşatdı. Belə bir layihənin həyata keçirilməsində məqsəd uşaq, yeniyetmə və gənclər arasında oxu vərdişlərinin inkişaf etdirilməsi, mütaliəyə marağı daha da artırmaq, kitabın gündəlik həyatımızın bütün sahələrinə daxil edilməsinə nail olmaqdır. Bilirsiniz, bir çox uşaqlar oxuduqları kitabları özlərilə gətirib müəlliflərinə imzalatdırdılar.

"Respublika Uşaq Kitabxanasının rəngarəng pavilyonunda Azərbaycan və xarici uşaq yazarlarının son illərdə nəşr olunmuş ədəbiyyatı, Brayil əlifbası ilə nəşr olunan kitablar, həmçinin jest dilinə tərcümə edilən uşaq ədəbiyyatı təqdim olundu. Respublika Uşaq Kitabxanasının təsis etdiyi "Göy qurşağı" uşaq jurnalının yeni nömrəsi oxuculara hədiyyə edildi.

Uşaq yazıçıları Sevinc Nuruqızı və Reyhan Yusufqızının təqdimatında eşitmə və nitq məhdudiyyətli uşaqlara nağıllar oxundu və jest dilinə tərcümə olundu.

Tədbir kitab ətrafında həmrəylik göstərən bütün kitabsevərlərin dostlaşmasına, birliyinə səbəb oldu. "Oxu Günü"ndə kitabxananın sərgilənmiş kitab rəflərində Qarabağ mədəniyyəti, tarixi, incəsənəti, musiqisi ilə bağlı ən maraqlı, gözəl tərtibatlı kitablar "KİTAB BAYRAMI"nın hədəfinə çevrildi.










**Hər şeylə maraqlananlar üçün**

# Lui Brayl

Lui Brayl görmə məhdudiyyətlilər üçün dünya miqyasında istifadə olunan Brayl əlifbasının yaradıcısıdır. Bu əlifbayla birdən altıya qədər olan xanalar vasitəsi ilə gözdən əlilər həm yaza, həm də oxuya bilərlər. Əlifba Asiya xalqlarının əlifbalarından başqa, dünyada olan bütün əlifbalara tətbiq edilmişdir. Lui Braylın özü də gözdən əlil olmuşdur.

Lui Brayl Paris yaxınlığında yerləşən Kopvrey kəndində anadan olmuşdur. Uşaqlıq dövrünün böyük bir qismi Lisle şəhərində keçmişdir. Atası Simon Rene Brayl sərraclıqla məşğul olurdu. Üç yaşı olanda atasının yataq otaqında, sərrac iynəsi ilə sol gözünü zədələyir. Bu hadisə zamanla sol gözünün kor olmasına səbəb olur. Gözünün zədələnməsi səbəbindən, Braylın sağ gözündə oftalmiya xəstəliyi yaranır. 6 yaşı olarkən, tamamilə kor olur. Bütün bunlara baxmayaraq, Brayl təhsil almaq və uğurlu gələcək qurmaq istəyirdi. Ailəsinin ona dəstək olması, Braylın təhsil almaq həvəsini daha da artırdı. Brayl 7 yaşı olarkən, Korlar üçün kral inistutuna daxil oldu. İnstitutda aldığı təhsil, Braylın həyatında böyük rol oynadı.

Burada dərsliklər artilleriya zabiti Çarl Barbyenin gecə vaxtı məlumatları göndərə bilmək üçün yaratdığı metodla hazırlanırdı. Belə ki, hərflər kartonda açılmış dəliklər vasitəsilə təsvir edilirdi, məlumat isə barmaqları bu işarələrə toxundurmaqla oxunurdu. Bu hərflər uşaq barmaqları üçün həddindən artıq böyük idi, bu isə sözləri oxumaqda çətinlik törədirdi. Bu səbəbdən 15 yaşlı Lui Barbyenin metodu ilə tanış olduqdan sonra onun ağlına relyef-nöqtəli yazı sistemini yaratmaq ideyası gəlir. O, 1829-cu ildə məktəbdə oxuyarkən öz adı ilə adlandırdığı, indiyə qədər bütün dünyada istifadə olunan gözdən əlil və görmə qabiliyyəti zəif olan şəxslər üçün Brayl şriftini yaradır. O, hərf və rəqəmlərdən başqa elə həmin prinsipə uyğun olaraq not əlifbasını yaratmış və gözdən əlil şəxslərə musiqini tədris etmişdir.

Gənc istedadlar

# Tanış olun, Sevindik Nəsiboğlu!




Hə, uşaqlar. Sizə bir sirr açım. Mən İncəhörüm, kitabxanaya kitab hədiyyə edən uşaqları daha çox sevirəm. Çünki onlar mağazadan aldıqları kitabı oxuduqdan sonra evdə saxlamayıb gətirib kitabxanaya hədiyyə edirlər ki, digər uşaqlar da bu kitablardan bəhrələnsin. Amma bu dəfə kitabxanaya hədiyyə edən heç bilirsiniz kim oldu? 5 kitabın müəllifi yazar, həm də sizin yaşıdınız Sevindik Nəsiboğlu. Onun kitablarına baxanda mən necə də sevindim. Çünki istedadlı uşaqlardan belə hədiyyə almağın bir başqa ləzzəti var.




## *Əliyev Sevindik Nəsib oğlu kimdir?*

26 iyul 2008-ci ildə İmişli şəhərində anadan olub. Əslən Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndindəndir. Hazırda Xırdalan şəhər 9 saylı tam orta məktəbin VIII sinfində oxuyur, dərs əlaçısıdır. Kompüter proqramları üzrə mükəmməl bilgiyə malikdir. Vikipediya vasitəsi ilə Azərbaycanımızın keçmişi, bu günü, tarixi şəxsiyyətləri, ədəbiyyat, incəsənət, mədəniyyət nümayəndələri barədə önəmli məlumatlar toplamışdır. 300-dən artıq şeiri mətbuatda işıq üzü görüb. 2017-ci ildə " Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyinin "Gənc istedad" fəxri diplomuna, 2019-cu ildə "Asiya Fakt" İnformasiya Agentliyinin "Sizi tanıyaq" layihəsində iştirakına görə uşaqlar arasında "Ən yaxşı yazar", "İlin şagirdi" diplomlarına və "Azərbaycan XXI əsrə istedadlarla" layihəsi çərçivəsində seçilən yerə layiq görülmüşdür. "Kredo" qəzetinin əməkdaşıdır və ölkənin ən gənc ədəbiyyat adamı, yazarıdır.




Əziz dostum! Kitabxanaya verdiyin qiymətli kiitab hədiyyələrinə görə, torpaqlarımızının azadlığı uğrunda canından, qanından keçən şəhidlərimiz haqqında yazdığın məqalələrə görə sənə ürəkdən təşəkkür edirəm! Çox sevindim! Sevindik o gözəl şerlərini oxuduqca sənə olan sevgim daha da artdı. Sən öz yaşıdlarına nümunə olacaq bir oğulsan. Çoxlu mütaliə etməyinlə bunu bir daha sübut etdin. Həmişə kitabla qanadlan, dərslərində mükəmməl ol, arzuladığın kimi Azərbaycanın ən tanınmışlarından ol. Sənə uğurlar!

## *Ey Vətənim, Azərbaycan!*

Göy-gölün var, Xəzərin var,
Qara qızıl, ağ zərin var,
Kür, Araza bənzərin var,
Ey Vətənim, Azərbaycan!
Dağlar gözəlin ceyrandı,
Təbiətin bir dastandı,
Oğulların qəhrəmandı,
Ey Vətənim, Azərbaycan!
Asif – igid, şücaətli
Fərid – cəsur, mətanətli
Yetir Mübariz qeyrətli
Oğullar, ey Azərbaycan!
Babəkin – bir dəli-dolun,
Cavanşirin – vuran qolun,
Lələtəpən – zəfər yolun,
Ey vətənim, Azərbaycan!
Bu bir Zərdüşt imanıdır,
Sevindiyin gümanıdır,
Bütövləşmək zamanıdır,
Ey vətənim, Azərbaycan!




## *Kapitan olacağam*

Dənizdə işləyəcəm,
Gəmidə olacağam.
Hərbi gəmi mənimdir,
Kapitan olacağam.
Məni görən əsgərlər,
Mənə təzim edəcək.
Bunu bilsin əsgərlər.
Bir kapitan gələcək.
Vətənimi sevəcəm,
İşi hazır edəcəm,
HDQ-ya gedəcəm,
Kapitan olacağam.
Mən gəmilər sürəcəm,
Yaxşıca işləyəcəm,
Yurda xidmət edəcəm,
Kapitan olacağam.
Qüvvəmi toplayacam,
Daha çox çalışacam,
Bir rütbə qazanacam,
Kapitan olacağam.






# *Ünvansız məktub*




Mənim 13 yaşım vardı. 2020-ci ilin avqust ayında bədnam erməni işğalçıları Tovuz rayonuna qəfildən hücum etdilər, mülki vətəndaşlarımız, əsgərlərimiz şəhid oldu. Şəhid olanlardan biri də generalımız Polad Həşimov idi. Bax, mən onda özümə söz verdim ki, hərbçi olacaq, Vətənimizi qoruyacağam. Müharibə başlayanda mən də atamla əsgərlərimizə yardım aparmaq üçün getmək istəyirdim. Amma müharibənin öz qanunları var, mənim yaşım buna çatmırdı. Atam öz dostu ilə bu işin öhdəsindən gələ bilirdi, düzdür çox çətin idi, amma çətin olmayan yerdə asan da olmur. Bir dəfə atam onlara yardım verib qayıdanda ona bir əsgər məktub vermişdi ki, anasına çatdırsın. Ünvanı yazmağı unutmuşdu. Həmin əsgərin adı Tural idi. Atam ünvansız məktubu ona verən oğlanı yenidən tapmaq üçün, həmin hissələrə üz tutdu. Amma artıq əsgərlər orada yox idi. Onlar rayonları işğaldan azad edərək irəliləmişdilər, Hadrut uğrunda döyüşürdülər.

Atam çox çətinlikdən sonra həmin əsgərin Masallıdan olduğunu öyrəndi. Şəhərə qayıdıb Masallıya getdi. Atam kino sahəsində işlədiyindən demək olar ki, hər bir rayonda dostları var. Masallıda da dostlarının köməyi ilə Tural Əbilov adlı əsgərin evini tapdı. Atam danışırdı ki, məktubu anasına verəndə ana məktubu o qədər öpdü ki.... "İki həftədir ki, balamdan bir xəbər ala bilmirdim. Zəng də eləmirdi. Şükür Allaha ki, xəbər çıxdı".

Tural anasına yazırdı ki, hər şey yaxşıdır. Tezliklə düşməni məğlub edib, onları diz çökdürəcəyik. Qarabağın qələbə xəbərini alacayıq. Ermənilər bizim bölümün - 52 adını eşidən kimi dovşan kimi qaçırlar.

Atam ünvansız məktubu ünvanına çatdırdı. Amma sonra atam öyrəndi ki, ana məktubu oxuyanda Tural artıq həyatda yox imiş, şəhid olmuşdu. Onun dəfninə getdi. Kənd camaatı şəhidlərini son mənzilə yola salırdı. Ana atamı görəndə əllərini açıb dedi:

"Balamın məktubunu mənə çatdırdın, özünü isə bax bu gün gətirdilər. Bundan sonra balamın ətrini o məktubdan alacağam – ünvansız məktubdan".

Ölüm əslində yoxluq və heçlik deyil. Əbədi diyara səfərdir. Əbədi diyara səfərdən sonra çoxları çox az müddətlik də olsa, dünyaya yenidən qayıtmaq və xeyirxah, saleh əməllər işləmək istəyəcəklər. Ancaq mənə elə gəlir ki, şəhidlər yenidən dünyaya qayıtsalar, yenə də şəhid olmağı arzulayarlar.

Şəhidlər haqqında yazılan bu misralar necə də yerində deyilib:

"Şəhidlər şərəf, qeyrət, ucalıq zirvəsidir,
Şəhidlər azadlığın od-şimşək zərrəsidir.
Şəhidlər tarixləşən – istiqlal türbəsidir,
Şəhidlər şimşək kimi buludlar saxlamazlar.
Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar!"

Allah Vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!

**Yusif Əliyev**
"Rəşadətlə yaşayanlar – Ölümü fəth edənlər" hekayə müsabiqəsinin qalibi
15 yaş, Sənaye və Texnologiya kolleci, 1-ci kurs, Bakı şəhəri

Avstraliya haqqında eşidəndə bu qitənin donanma ayaqlı simvolları olan dəvəquşu və kenquru ağlımıza gəlir. Bəs bu ölkədəki məktəblərdə təhsil necədir? Adları çəkilən heyvanlar qədər güclü və dinamikdirmi? Gəlin, birlikdə ora səyahət edək.





# İncəhörümün səyahəti

***Dünyadakı məktəblərin heç biri digərinə bənzəmir, onları özünəməxsus edən müəllimlər və şagirdlərdir.*** *Məktəblilər öz dəftər və kitablarını evə aparmırlar, məktəbdə saxlayırlar. Ev tapşırıqları deyilən nə varsa məktəbdə hazırlayırlar. Odur ki, kitabları görmək üçün məktəbə gəlmək lazımdır. Bu ölkədə dərslikləri, dəftərləri yığmaq üçün lazım olan beş kiloqramlıq kürək çantaları haqqında heç kim eşitməyib, çünki "kisəsi" olan yalnız kenqurulardır, məktəblilər isə "kisəsiz"gəzirlər.*

## Tədris ili nə vaxt başlayır

Avstraliya Gününün qeyd olunmasından sonra, yəni yanvarın 26-da.






Tanış olun, bu Evelindir. O bizə Avstraliya məktəbinin özəllikləri haqqında məlumat verəcək.

## Məktəbli forması

Şagirdlər qısa şalvar, ətək, ağ köynək geyinirlər. Furajka tələb olunur.



## Bir dərs nə qədərdir?

Buna müəllim qərar verir. Uşaqlar həftənin beş günü məktəbə gedirlər.





### Birinci sinif şagirdinin yaşı

Avstraliyada uşaqlar məktəbə çox erkən gedirlər: 5 yaşında (bəzən, hətta 4 yaşında) Şagirdlər əvvəlcə həftədə cəmi 3 gün hazırlıq sinfində təhsil alırlar.



## *Uşaqlar!*

*Bu dəfə məni Avstraliyadan məktəblilər dəvət etdilər! Gəlin, mənimlə uçaq, görək bu ölkədə uşaqlar necə yaşayır, necə oxuyurlar!*




## Nahar üçün nə var?

Avstraliya məktəblərində yeməkxana yoxdur! Yaxınlıqdakı marketdən özünüzə dadlı bir şey ala bilərsiniz.







## Gələcəyə doğru

Şagirdlər (hətta birinci sinif şagirdləri) tapşırıqların bir hissəsini elektron şəkildə yerinə yetirirlər, buna görə də məktəbdə hər kəsə təkcə dəftər və dərslik deyil, həm də noutbuk lazımdır.






# Avstraliya
## UŞAQ KİTABXANASI



**Kitabxananın əsas məhsulu əlbəttə ki, kitablardır. Bəs kitaba, mütaliəyə uşaqları necə cəlb etmək olar? Bunun üçün kitabxana əməkdaşları reklam yaradıcılarından heç də geri qalmayan yeni yollar axtarıb tapırlar.**



**Kitabxanaçılar kitabla oxucuları belə görüşdürür: kitablar xüsusi kağızlı üz qabığında qablaşdırılır, üzərində həmin əsərin nədən bəhs edildiyi yazılır. Oxuculara verilən bu kitablar onlar üçün daha maraqlı olur. Odur ki, keçirilən xeyriyyə aksiyaları daha populyardır. İstifadəçilərə kitabla birgə qəbz də verilir, hansı ki, bu qəbzdə onlar məhz kitabxanadan istifadə etdikləri üçün nə qədər pula qənaət etdikləri göstərilir. Xırda şeydir, lakin yaddaqalandır.**



### Ağac köşkündə oxu

İçində oxu guşəsi olan, ustalıqla hazırlanmış "ağacın" rahatlığından uşaqların istifadəsi üçün 35.000-dən çox gözəl kitab var! Uşaqlar maraqlı dizaynla hazırlanmış "Ağac"dakı kitabların pərəstişkarıdır. "Ağac"ın ətrafında çoxlu yastıqlı kətillər də var. Yerdən tavana qədər şüşə pəncərələrə düşən təbii işığın axarında kitab oxumaq üçün necə də rahat yerdir!

### İpsviç Uşaq Kitabxanası
### Avstraliyanın yeganə uşaq kitabxanası!

İpsviç Uşaq Kitabxanası uşaqların sevə-sevə üz tutduqları ən gözəl məkandır. Kitabxana uşaqların sevəcəyi çoxlu interaktiv rəqəmsal təcrübələri təqdim edir. Mən də gəldiyim bu yeni məkanda bir neçə saat oldum və belə qənaətə gəldim ki, hətta kitabı sevməyən uşaq da belə gözəl yerdə mütləq onu sevəcək. Diqqətimi daha çox çəkən uşaqların sevincli gülüşləri idi. Uşaqlar rəqəmsal oyunlarla xəyallar qurur, maraqlı kəşflər edirdilər. Mən kitabxanadan ayrılmaq istəməyən nə qədər uşaqların şahidi oldum.





Nikolas Strit rayonunda yerləşən İpsviç Uşaq Kitabxanası 0-12 yaş arası uşaqların istirahəti üçün həqiqətən də gözəl bir məkandır. Budur, İpsviç Uşaq Kitabxanasında ailə əyləncəsinin yeni bir dadı.





# Flaminqo

Planetimizin müxtəlif heyvanları haqqında oxumağı sevirsinizsə, onda bu səhifə sizin üçündür, maraqla oxuyun.

Qırmızı Kitaba düşmüş nadir quşlar haqqında nə bilirik? Bu kitabın nümayəndələrindən biri də Çəhrayı Flaminqolardır. Bunlar qədim quşlardır, dinozavrları gördüklərini düşünmək olar. Flaminqo quşları bir neçə yüz min quşdan ibarət olan böyük sürülərlə, çayların və gölməçələrin sakit sahillərində yaşayırlar.











Ən böyüyü, Avropa və Asiyada yaşayan çəhrayı flaminqodur, boyu təxminən 1,3 metr, çəkisi 3,5-4 kiloqramdır. Flaminqo tez-tez bir ayağı üzərində dayanır. Bu davranışın səbəbləri tam olaraq dəqiqləşdirilmir, ancaq son elmi araşdırmalara görə, quşlar istilik itkisini azaldır, çünki soyuq suda saatlarla yatmaq məcburiyyətində qalırlar. Bu quşlar xərçəngkimilər, mavi-yaşıl yosunlar, mollyuskalar, kiçik qurdlar və böcək sürfələri ilə qidalanır. Flaminqo qidası dayaz suda əldə edilir.

Flaminqoların yuva qurma müddəti may-iyul aylarına təsadüf edir. 3 yaşına çataraq nəsil yetişdirə bilir, lakin flaminqo quşu yalnız 5-6 yaşlarında yuva qurmağa başlayır. Hər iki valideyn yuva qurmaqda iştirak edir. Flaminqo, balalarını çəhrayı olan quş südü ilə bəsləyir. Yalnız dişilərin deyil, erkəklərin də süd verməsi təəccüblüdür. Yumurtadan çıxan cücə əvvəlcə ağ tüklərlə örtülmüş olur, sonra o boz rənglə əvəz olunur.



Çəhrayı flaminqoların bir növ uşaq bağçası var, burada flaminqo cücələri tərbiyəçilərin himayəsində olur, valideynləri isə yemək dalınca gedirlər. Belə bir qrupda 200-ə qədər flaminqo balası ola bilir, ancaq valideyn dərhal körpəsini səslə tapır. Üç aylıq dövrdə flamingo balalar böyüklərin ölçüsünə qədər böyüyür və uça bilir. Çəhrayı flaminqoların orta ömrü 30 ildir.

Flaminqoların yüksək və pirsinqli qışqırıqları var. Valideynlər övladlarını səsləri ilə fərqləndirirlər. Bu maraqlı bir təbii mexanizm tərəfindən təmin edilir. Fakt budur ki, kiçik quşlar hələ yumurtada olarkən səs çıxarmağa başlayırlar. Valideynlər onlara öyrəşirlər və uşaqları dünyaya gələndə o səslə tanıyırlar. Flaminqoların yad cücələri qidalandırması adət deyil. Valideynlər bunu etməzsə, körpə acından ölər.







Flaminqo, incə çəhrayı bir rəng ilə çox gözəldir. Ancaq bu quşun təbiətdən olmayan çəhrayı lələkləri var. Bu rəngi qidadan - kiçik yaşıl yosunlardan alır. Həzm zamanı bu yosunlar çəhrayı olur.



Anatomik olaraq, onlar leyləklərə bənzəyirlər və davranış xüsusiyyətləri daha çox qaz kimi su quşlarına bənzəyir.

Flaminqo çox vaxt "balet" pozasını alır. Boyunlarını əyməklə, hətta bir düyün bağlamaq olar. İstirahət edərkən flaminqo, bir ayağını bədəninə basaraq başını arxasına və ya lələklərin altına gizlədir. Bu vəziyyətdə bu quş yatır. Təhlükə baş verdikdə, o dərhal uçur, yırtıcı onu tutmağa fürsət tapmır.

# Təbiəti birlikdə qoruyaq, təbiət bizim evimizdir!

Vətənimiz zəngin və gözəldir. Onun meşələri, dəniz və çayları müxtəlif heyvanlar, quşlar, balıqlarla zəngindir. Amma bütün bu sərvət əbədi deyil, ona diqqətli münasibət və qorunma lazımdır. Təbiəti qorumaq Vətəni qorumaq deməkdir. Gəlin, təbiətlə necə davranmaq qaydalarını birlikdə öyrənək. Ağac və kolların budaqlarını qırma. Ağac canlı varlıqdır. Onun budaqları və yarpaqları ağacın həyatında mühüm rol oynayır. Budaqlar ağacların damarlarıdır. Onları kəsib ağacları öldürməyin. Məsələn, yarpaqlar bitkinin nəfəsini hiss edir.

Bitkilər yarpaqların köməyi ilə qidalanır: işıqda (karbon qazı və sudan) onlarda bitki, heyvan və insanlar üçün zəruri olan qida anı oksigenlə zənginləşdirir, tozu özünə yığır. Təsadüfi deyil ki, yaşıllıq çox olan yerdə rahat nəfəs almaq olur. Biz həm də bitkilərin təbiətə verdiyi gözəlliyi də unutmamalıyıq. Budaqları, gülləri qırmaqla biz bu gözəllikdən də məhrum oluruq.





Ağacların gövdəsinin qabığını zədələmək olmaz! Məlumdur ki, uşaqlar tez-tez ağacların gövdəsində öz adlarını və digər qeydləri etmək üçün onların qabığını cızırlar. Bu, təbiətin gözəlliyini korlamaqla ağaclara çox ziyan vurur (cızıq erindən ağacın şirəsi axır, qabığın altına mikroblar göbələk )keçir ki, bunlar da ağacın xəstələnməsinə, hətta, məhvinə səbəb olur.



Meşədə və çəməndə gülləri qırma. Qoy gözəl bitkilər təbiətdə qalsın! Yadda saxla ki, gül dəstələrini yalnız insanın əkib becərdiyi güllərdən tutmaq olar. Gül dəstəsinin yabanı çiçəklərdən tutulması təbiətə mənfi təsir göstərən amillərdən biridir. Çox zaman yanlış olaraq bu amili qiymətləndirmir, onu diqqətdən kənar qoyurlar. Lakin məhz köhnə adət olan gül toplama vərdişi insanların çox gəzişdiyi yerlərdə bir çox bitki növlərinin yoxa çıxmasına səbəb olur.



Bizim güllərə qarşı "sevgimizin" qurbanları təkcə əvvəldən nadir olan bitkilər deyil, həm də adi, zənciçəyi kimi geniş yayılmış bitkilərdir. Hərənin hətta bir çiçək dərməsi təbiətə nə qədər ziyan vurur. Axı, hər dəfə bütöv bir sinif gül dəstəsi toplasa həmin gözəl bir çəmənlikdən əsər-əlamət qalmaz. Çəməndə bitmiş bitki burada "öz evindədir", o, burada digər sakinlərlə əlaqədədir. Məsələn, güllərə həşəratlar qonur və onun şirəsini çəkərək qidalanırlar. Çiçəklənmədən sonra meyvə və toxumlar əmələ gəlir.





Bu toxumlar torpağa düşərək yenidən həmin bitkilərin çoxalmasına səbəb olur. Bu halda müvəqqəti zövq almaq üçün bu çiçəkləri qırmağa bizim haqımız varmı? Əlbəttə, yox.

Bunun üçün bağlarda, güllüklərdə gözəl bitkilər yetişdirilir. Gözəl, yabanı çiçəklər isə qoy təbiətdə qalsınlar. Dərman bitkilərindən yalnız o ərazidə çox yayılmışını toplamaq olar.





Dərman bitkiləri qiymətli təbii sərvətdir və ona qayğı ilə yanaşmaq lazımdır. Onlardan bir çoxunun (pişikotu, inciçiçəyi, qışyaoxşar bitki) kütləvi şəkildə toplandığına görə sayı azalmışdır. Buna görə də uşaqlar sayı çox olan bitkiləri toplaya bilər (boymadərən, kəklikotu, çobanyastığı və s...). Lakin elə bu bitkilərin də çox hissəsinin toxunulmaz qalaraq toplamaq lazımdır.



Əlbəttə ki, dərman bitkilərinin toplanması müəllimin, valideynlərin, ən yaxşısı isə, tibb işçisinin və ya aptek işçisinin rəhbərliyi altında keçirilməlidir. Dərman xammalının hazırlanması heç də "qeyd" xətrinə, elə-belə kütləvi tədbir kimi keçirilməməlidir. Bu həm pedaqoqların ekoloji tərbiyə sahəsində apardığı işə, həm də təbiətə böyük ziyan verə bilər.



Bir çox uşaqlarda zəhərli göbələklərə qarşı pis münasibət formalaşıb. Bəhanə gətirirlər ki, belə göbələkdən insanlar və ya heyvanlar zəhərlənə bilərlər. Məlumdur ki, göbələklər, həmçinin insan üçün zəhərli göbələklər meşənin bir komponenti sayılır. Özlərinin yeraltı hissələri - göbələk telləri ilə ağac, kol, ot gövdələri ilə birləşərək onları su, mineral duzlar, boyatma maddələri ilə təmin edir. Göbələklər meşənin sanitarı sayılırlar: onlar bitki qalıqlarının çürümə prosesində iştirak edirlər.

# "Dostluq və gələcək"





Zəhra Seyfullayeva
(13 yaş)



Cəlil Kərimli
(12 yaş)

Çin və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə və iki xalq arasında dostluq əlaqələrinin daha da gücləndirilməsi məqsədilə "Dostluq və gələcək" mövzusunda keçirilən müsabiqədən rəsmlər.

"Palitra" rəsm studiyasının rəhbəri
Nərmin Abdullayevanı
və Bakı şəhər 3 nömrəli Uşaq-Gənclər İnkişaf
Mərkəzinin gənc rəssamlarını təbrik edirik!



Səid Qəmərli
(14 yaş)



Aydan Rzayeva
(12 yaş)



Ömər Qəmərli
(12 yaş)



Xədicə Məmmədova
(11 yaş)



Zəhra Nəbiyeva
(9 yaş)



Lalə Nəsirli
(13 yaş)



İnci Babazadə
(10 yaş)



Dəniz Quliyeva
(12 yaş)



Kövsər Qurban
(7 yaş)



Dəniz Cəfər
(8 yaş)



# MƏNTİQİ SUAL



## Kim hansı yaşdadır?

Balaca İlqarın dostlarının yaşını hesablayıb cavabını dənizdən tapın.
Dənizin yaşı 8-dən 5 ədəd çox və 1 ədəd kiçikdir.
Muradın yaşı 9-dan 3 ədəd çox 1 ədəd kiçikdir.
Aişənin yaşı 13-dən 5 ədəd çox və 4 ədəd kiçikdir.

A) Dəniz (yaş 11) Murad (yaş 11) Aişə (yaş 13)
B) Dəniz (yaş12) Murad (yaş 8) Aişə (yaş 12)
C) Dəniz (yaş10) Murad (yaş 9) Aişə (yaş 14)

## Detallar

Sual işarələrinin yerində işlənəcək fiqurları tapın.

A)
B)
C)






## Xal sayı



Balaca Arifin gedəcəyi ölkələrin sayı bir-birinin eynisi olan iki kəpənəyin qanadındakı nöqtələrin cəminin dördə bölünməsi ilə tapılır. Kəpənəkləri tapın, nöqtələri sayın və dördə bölün.

## Bərabərləşdirmə

*Hər şəklin cütünü tapın və nömrəsini yanına yazın.*




## Nəqliyyat tutumu hesabları

A nəqliyyat vasitəsi bir dəfəyə B-nin iki qatı, C-nin isə dörd qatı qədər material daşıyır. Hər nəqliyyat vasitəsinin bir dəfə səfər etməsi ilə daşıdığı yüklərin ümumi miqdarı C-nin bir dəfəyə daşıdığı yükdən neçə dəfə çoxdur?

A)28 B)12 C)9 D)7

A



B



C



## Qarışıq şəkillər

Rəqəm qrupundakı şəkillərin cütlərini hərf qrupundan taparaq üzərinə eyni rəqəmi yazın.



## “Zərbə vur!”

Gəlin boulinq oynayaq. 100 xal yığmaq lazımdır! Bu rəqəmi əldə etmək üçün hansı üç daş düşməlidir?





# HAQQINDA NAĞIL

Çox uzaqlarda, dəniz və dağların o tayında, Sifiriya adlanan bir ölkə var idi. Orada qoçaq və dürüst rəqəmlər yaşayırdı, yalnız Sıfır tənbəl və vicdansız idi.

Bir gün rəqəmlər səhradan çox uzaqda Arifmetika adlı kraliça barəsində öyrəndilər. Kraliça hər bir Sifiriya sakinini ona xidmət üçün hüzuruna çağırdı. Hər bir rəqəm məmnunluqla kraliçaya xidmət etmək istəyirdi. Sifiriya ilə Arifmetika krallığı arasında, ərazisindən dörd çayın -Toplama, Çıxma, Vurma və Bölmənin, keçdiyi səhra uzanırdı.

-Bəs Arifmetikaya necə çatmaq olar? – rəqəmlər öz aralarında fikirləşdilər və birləşməyə qərar verdilər (axı, yoldaşlarla çətinlikləri aradan qaldırmaq daha asandır) və səhradan bir yerdə keçməyə çalışdılar. Səhər tezdən, günəş şüaları təzəcə yerə toxunan kimi rəqəmlər yola düşdülər. Onlar qızmar günəş altında uzun yol getdilər və nəhayət, Toplama çayına çatdılar.

Nömrələr susuzluqlarını yatırmaq üçün çaya tərəf qaçdılar, amma çay onları dayandırıb dedi: "İki-iki yanaşı durun və toplanın, cəmin sayı qədər sizə içməyə su verəcəm". Hamı çayın əmrinə tabe oldu. Çayın istəyini tənbəl Sıfır belə yerinə yetirdi, lakin onunla yanaşı duran rəqəm heç də razı qalmadı, çünki nəticə olaraq çay, cəmində vahidlərin sayı qədər su verdi, bunlarda isə cəm rəqəmin özündən heç də fərqlənmirdi. Günəş daha da qızmağa başladı. Rəqəmlər gəlib Çıxma çayına çatdılar. Bu çay da həmçinin suyun əvəzini istədi. İstək belə idi: Yan-yana durun və böyük rəqəmdən kiçik rəqəmi çıxın; kimin cavabı az olsa, o daha çox su alacaqdır. Yenə də Sıfırla qoşalaşmış rəqəm uduzan və üzülən oldu. Rəqəmlər qızmar səhrada daha da dolaşdılar və gəlib Vurma çayına çatdılar. Vurma çayı ədədlərin çoxalmasını tələb etdi. Sıfır ilə qoşalaşmış rəqəm bu səfər ümumiyyətlə su qəbul edə bilmədi. Artıq Bölmə çayında rəqəmlərin heç biri Sıfır ilə yanaşı durmadı. O vaxtdan bəri ədədlərin heç biri sıfıra bölünmür. Düzdür, Kraliça Arifmetika bu tənbəl ilə bütün rəqəmləri barışdırdı: o, sadəcə olaraq, rəqəmlərin yanına Sıfırı artırdı və nəticə olaraq rəqəmlər bir neçə dəfə böyüdü.

O zamandan bəri bütün rəqəmlər mehriban yaşamağa başladılar.





Milli dəyərlərimizi qoruyaq və yaşadaq!

# Bədii tikmə sənəti

Azərbaycan ailələrinin çoxunda ulu nənələrdən yadigar qalan zərif tikmələrə rast gəlmək mümkündür. Bir zamanlar çox dəyərli sayılan bu nümunələr nəsildən-nəsilə keçərək günümüzədək gəlib çıxıb.









Dekorativ-tətbiqi incəsənətin bir növü olan bədii tikmələrin tarixi çox qədimdir. Azərbaycan tikmə sənətinin təsvir vasitəsi olduqca zəngin və rəngarəngdir. Buraya müxtəlif növ sap, parça, muncuq, pilək və digər bədii materiallar daxildir.

Tikmə sənətində ən çox rəngli ipək saplardan istifadə olunur. Vaxtilə qızıl və gümüş tellərdən, ağac qabığı və fil sümüyündən hazırlanmış lövhəciklərdən, metal piləklərdən hətta qiymətli daş-qaşdan da geniş istifadə edilirdi.

Tikmə elə bir sənət növü idi ki, onunla həm sadə camaat, həm də zəngin təbəqəyə məxsus insanlar məşğul olurdu. XIX əsrdə yaşamış Azərbaycan şairəsi Xan qızı Natəvan gözəl şeirlərlə yanaşı, zərif tikmələrin də müəllifidir. Bu sənətin sirlərini ona həm də ilk təhsil verən bibisi Gövhər xanım olmuşdur. X.Natəvanın tikmələri Milli Azərbaycan Tarixi və Milli Azərbaycan İncəsənət muzeyində, fransız yazıçısı A.Dümaya bağışladığı tikməpul kisəsi Dümanın Fransadakı ev muzeyində saxlanılır.

Azərbaycan bədii tikmələrində ən çox qızılgül, nərgiz, qərənfil, lalə, zanbaq, nar, heyva, alça çiçəkləri, sünbül, müxtəlif formalı yarpaqlar, bülbül, tovuz quşu, göyərçin, tutu quşu, şanapipik, sərçə, qırqovul, bildirçin, kəklik və digər motivlərə yer verilirdi.

XVIII-XIX əsrlərdə tikmə sənəti əvvəlki mövqeyini yavaş-yavaş itirir, güləbətin, pilək, zərənduz və digər tikmə növləri tədricən aradan çıxmağa başlayır. Buna baxmayaraq təkəlduz tikmə ənənələri davam edirdi.

Təkəlduz orta əsrlərdə Şəkidə geniş yayılmışdı və bu tikmə növündə naxışlar "gəzmə" və ya "doldurma" üsulu ilə salınırdı. Təkəlduzçular əsasən yerli və ya xaricdə istehsal olunan qırmızı, qara və tünd göy rəngli məxmər və mahuddan istifadə edirdilər.

Bu gün də Azərbaycanda bədii tikmə məktəbi qorunub saxlanılır. Sənətkarların əl işləri beynəlxalq sərgilərin və muzeylərin ekspozisiyalarını bəzəyir.